# COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ DÜNYA KİTABXANALARININ FƏALİYYƏTİ VƏ AZƏRBAYCAN KİTABXANALARI QARŞISINDA DURAN VƏZİFƏLƏR

**Xəlil İsmayılov**
*BDU-nun professoru, Əməkdar mədəniyyət işçisi,*
*BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki,*
*tarix üzrə elmlər doktoru*
*X.ismayilov@mail.ru*

***COVID-19 pandemiyası dövründə dünya kitabxanalarının fəaliyyəti və Azərbaycan kitabxanaları qarşısında duran vəzifələr***
***Xülasə:*** *Məqalədə COVİD-19 virusunun dünyada yayılaraq qlobal ümumbəşəri problemə çevrildiyi bir şəraitdə ayrı-ayrı dünya ölkələri kitabxanalarının fəaliyyəti araşdırılır, görülən tədbirlər təhlilə cəlb edilir. Məqalədə həmçinin, pandemiya şəraitində Azərbaycan Respublikasında dövlət səviyyəsində həyata keçirilən sosial preventiv tədbirlərin mahiyyətinə toxunulur. Burada ölkə kitabxanalarının üzərinə düşən funksiyalar, mövcud problemlərin aradan qaldırılması yolları, qarşıda duran vəzifələr göstərilir.*
***Деятельность мировых библиотек во время пандемии COVID-19 и задачи, стоящие перед азербайджанскими библиотеками***
***Резюме:*** *В статье анализируется деятельность библиотек разных стран в контексте распространения вируса COVID-19 в мире, становится глобальной проблемой и анализируются принятые меры. В статье также затрагивается сущность мер социальной профилактики, осуществляемых на государственном уровне в Азербайджанской Республике в контексте пандемии. Он показывает функции библиотек страны, пути преодоления существующих проблем и задачи на будущее.*
***Activities of world libraries during the COVID-19 pandemic and tasks facing Azerbaijani libraries***
***Abstract:*** *The article examines the activities of libraries in different countries in the context of the spread of COVID-19 virus in the world and becomes a global problem, and analyzes the measures taken. The article also touches on the essence of social preventive measures implemented at the state level in the Republic of Azerbaijan in the context of a pandemic. It shows the functions of the country's libraries, ways to overcome existing problems, and the tasks ahead.*
***Açar sözlər:*** *COVİD-19 pandemiyası, Kitabxana, Azərbaycan, İFLA, qanun, kitabxana fəaliyyəti, sosial təcrid, qanun, kataloq, virtual kitabxana xidməti.*
***Ключевые слова:*** *пандемия COVID-19, библиотека, Азербайджан, ИФЛА, закон, библиотечная деятельность, социальная изоляция, право, каталог, виртуальная библиотечная служба.*
***Key words:*** *COVID-19 pandemic, Library, Azerbaijan, IFLA, law, library activity, social isolation, law, catalog, virtual library service.*

**Giriş:** Hazırki şəraitdə dünyanın gündəmi koronavirusa qarşı mübarizədir. Hər gün bu virusa yoluxanların, onun qurbanlarının sayı barədə dəhşətli rəqəm-

lər açıqlanır. COVID-19 və ya koronavirus infeksiyası – son zamanlarda aşkar edilmiş bir xəstəlikdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, COVID-19 virusuna yoluxmuş insanların əksəriyyətində yüngül və ya orta dərəcədə tənəffüs xəstəliyi olur və xüsusi müalicə olmadan sağalır. Yaşlı insanlarda, həmçinin arterial təzyiq, ürək xəstəliyi, şəkərli diabet, xroniki tənəffüs xəstəlikləri və ya xərçəng kimi mövcud patoloji xəstəlikləri olan insanlarda xəstəliyin ağırlıq ehtimalı daha yüksəkdir. Xəstəlik yüksək hərarət, zəiflik və quru öskürəklə müşahidə olunur. Digər simptomlar arasında təngnəfəslik, boğaz ağrısı var və bəzi xəstələrdə ishal, ürək bulanması və ya burun axması ola bilər. COVID-19 virusuna yoluxmuş bir adamın öskürdüyü zaman ilk növbədə tüpürcək damcıları və ya burun axıntıları ilə ətrafa yayılma baş verir [1].

**Məsələnin qoyuluşu:** Müasir şəraitdə yeni növ koronavirusun (COVID-19) yayılması bütün dünya ölkələrinə olduqca mənfi təsir göstərir, ciddi sosial problemlər yaradır. Hazırda fərqli beynəlxalq qurumların verdiyi neqativ proqnozların şahidiyik. Bu proqnozlar onu deməyə imkan verir ki, pandemiyadan sonra bütün dünya çox fərqli siyasi, sosial və iqtisadi şəraitdə yaşayacaq. Çünki məhz virusun yayılması ölkələri, xalqları və insanları bir birinə qarşı daha anlayışlı, səbirli və həssas yanaşmağa məcbur etdi.Virusun inkişaf səviyyəsindən asılı olmadan dünyada sosial və iqtisadi həyata zərbə vurdu. Məsələn, Avropa Komissiyasının rəhbəri Ursula Von - der - Leyenin sözlərinə görə, COVID-19 pandemiyası ilə bağlı karantin tədbirləri nəticəsində baş verəcək Avropa iqtisadiyyatındakı tənəzzül Avropa İttifaqı tarixində ən ağır olacaq: "Avropa bir çox böhranlardan keçib, lakin pandemiyadan sonra olacaq belə iqtisadi tənəzzül ilə heç vaxt üzləşməyib. Hər kəsin köməyə ehtiyacı var və bunda heç kəsin günahı yoxdur. Mövcud böhran sosial həyatın dayanmasından əziyyət çəkən tamamilə sağlam şirkətlərə belə təsir göstərir [8].

Koronavirus pandemiyası şəraitində həm dünya, həm də ayrı-ayrı ölkələrin iqtisadiyyatı çətin vəziyyətdədir və bu şəraitdə məşğulluğun, sosial rifahın dəstəklənməsi sahəsində tədbirlərin həyata keçirilməsi olduqca vacibdir.

**Məsələnin izahı:** Beləliklə, bütün dünya ölkələrində koronavirus pandemiyasının bəşəriyyət üçün gətirdiyi fəsadlar, insanlar üçün ciddi problemlərin yaranması böyük təşvişə səbəb olmuş, demək olar ki, bütün dünya ictimaiyyətini virusa qarşı mübarizəyə qoşulmağa səfərbər etmişdir.

Qlobal pandemiyanın tüğyan etdiyi şəraitdə Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çox çevik və vaxtında həyata keçirilən kompleks tədbirlər nəticəsində Respublikamızda pandemiyanın fəsadlarını minimuma endirilmişdir.

Ölkə rəhbərliyinin qətiyyətli səyi nəticəsində Respublikada qlobal pandemiyanın fəsadlarının aradan qaldırılması üçün hüquqi-administrativ tədbirləri icra edəcək Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmış və Azərbaycan Respublikasının Baş Naziri Operativ Qərargahın rəhbəri təyin edilmişdir. Həmçinin, Ölkə rəhbərliyinin koronavirus pandemiyasının fəsadlarının aradan qaldırılmasına yönəlmiş hüquqi-administrativ tədbirlə-



rindən biri də Respublikada pandemiya problemi ilə bağlı mərkəzi və regional sanitar-gigiyenik və bir sıra müəyyən olunmuş tibbi tədbirlərin həyata keçirilməsi və icrasını həyata keçirən Tibbi Ərazi Bölmələrinin idarəetmə Birliyinin (TƏBİB) yaradılmasıdır. Adları qeyd edilən qurulmlar operativ olaraq pandemiyanın qarşısının alınmasına yönəlmiş tədbirlər və atılan addımlar barədə daim cəmiyyəti məlumatlandırır, demək olar ki, bütün kütləvi informasiya vasitələri, informasiya portalları ilə ölkə ictimaiyyətini rəsmi məlumatlandırır.

Bu qurumların hər biri öz effektiv fəaliyyəti, cəmiyyətə operativ xidməti ilə ölkədə pandemiyanın fəsadlarının aradan qaldırılmasına yönəlmiş hüquqi-administrativ tədbirlərin əhəmiyyətli nümunəsi kimi özünü doğrultmuş, Respublika rəhbərliyinin qarşıya qoyduğu vəzifə və tapşırıqların layiqincə yerinə yetirilməsinə demək olar ki, nail ola bilmişdir.

Ölkədə pandemiyanın fəsadlarına qarşı görülən genişmiqyaslı tədbirlər sırasında, qeyd etdiyimiz kimi, məşğulluğa və sosial rifaha dəstək tədbirləri əsas yer tutur. Dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı təsdiqlənmiş "Tədbirlər Planı"da məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 mühüm tədbir öz əksini tapmışdır. Dövlət başçısı tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. Vacib məqam ondan ibarətdir ki, ölkədə iş yerlərinin və əmək haqlarının qorunması sahəsinə lazımi diqqət yetirilib. Dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün məqsədyönlü işlər aparılıb. Əhatə dairəsi 1,629 milyon işçi (dövlət sektoru üzrə 910 min, özəl sektor – 719 min) olan elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. Belə ki, əmək müqaviləsi sayında azalma deyil, əksinə, artım baş vermişdir [2].

Bununla yanaşı, İqtisadiyyat Nazirliyinin məlumatına görə 300 min muzdlu işçinin əmək haqlarının bir hissəsi maliyyələşdirilmiş və təqribən 300 min fərdi sahibkara dəstək verilmişdir.Əhalinin məşğulluq imkanlarının artırılması da diqqət mərkəzindədir. Məşğulluq orqanlarının fəaliyyəti gücləndirilib. DOST İş Mərkəzi vasitəsi ilə pandemiyanın davam etdiyi aprel-may ayları üzrə 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanılmış və bunun üçün 30 milyon manat vəsait ayrılmışdır. Onu da qeyd etmək lazımdır ki, ümumilikdə, ictimai iş yerlərin sayı 90 minə çatıb. Xüsusi karantin rejimi başlayanadək 38 min şəxs bu işlərə cəlb edilib və hazırda da işləməyə davam edirlər.

Ölkədə koronavirusun yayılmasından yaranan problemlərin həlli çərçivəsində işsizlər və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal işləyən şəxslərə ölkə üzrə aylıq yaşayış minimumu səviyyəsində (190 manat) birdəfəlik ödəmə verilməsinə başlanıb. Birdəfəlik ödəmə aprel-may aylarını əhatə edərək 600 min şəxsə ödənilmişdir. Aprelin 7-də təsdiq edilən qaydalar üzrə çox qısa müddət ərzində (2 günə) ödənişlərə başlanılıb və 9 gün ərzində (9-17 aprel) 140 min işsiz üçün birdəfəlik ödəmə təmin edilib. Xatırladaq ki, birdəfəlik ödəmə köçürülərkən vətəndaşa bu barədə SMS göndərilir. Ödəniş bank filialları və ya poçt şöbələri vasitəsilə şəffaf şəkildə təmin edilir [6].

Hesab edirik ki, virus aradan qaldırıldıqdan sonra, bu ölkədə sosial və iqtisadi vəziyyətinin bərpasına və daha da yüksəlməsinə öz töhfəsini verəcək. Bununla yanaşı, işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub. Əmək müqaviləsinin müddəti bitmiş şəxslərə də işsizlikdən sığorta ödənişi şamil edilməsi həyata keçirilir. 2020-ci il üçün bu növ ödənişin 20 min nəfəri əhatə etməsi nəzərdə tutulur.

Diqqətdən qaçmamalıdır ki, pandemiya başlayandan indiyədək ölkədə heç bir sosial ödəniş – pensiya, müavinət və s. üzrə ödəmələrdə hər hansı gecikmə demək olar ki, baş verməyib. Xüsusi həssas təbəqələrin sosial müdafiə tədbirlərinin gücləndirilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il üzrə yaranmış 200 milyon manat ehtiyatı əhaliyə sosial ödənişlərin davamlılığının təmin edilməsinə yönəldilib.

Qeyd edək ki, 2020-ci ildə xüsusi karantin şəraitində 112 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi işləri aparılır. Bunun üçün İşsizlikdən Sığorta Fondundan 70 milyon manat ayrılıb. Proqramın genişləndirilməsi ilə bağlı Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq edilir (hər il 250 ailə). Bu sahədə banklarla da əməkdaşlıq həyata keçirilir.

Koronavirusun yayılmasının mənfi nəticələri ilə mübarizə çərçivəsində Azərbaycan dövləti tərəfindən xüsusi həssas təbəqələrin sosial müdafiə tədbirlərinin gücləndirilməsi, tənha yaşlılara sosial xidmətlər və digər dəstək tədbirlərini də qeyd etməmək mümkün deyil. Yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində sosial xidmətlərin göstərilməsi və xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial xidmət müəssisələrində qayğı göstərilməsi işləri aparılır, 15 000-dən çox tənha yaşlıya sosial xidmətlər göstərilir. Sosial tərəfdaşlar vasitəsilə artıq 17 minədək ərzaq payı tənha və əlilliyi olan şəxslərə verilib. Bu proses davam edir. Bundan başqa, hazırda 9 sosial xidmət müəssisəsində 1000-dən çox şəxs stasionar şəraitdə sosial xidmətlərlə təmin olunub [7].

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrdən olan tələbələrin vəziyyəti də diqqətdən kənarda qalmayıb. Bu kateqoriyadan olan tələbələrin təhsil haqqının ödənməsini dövlət öz üzərinə götürmüşdür. Beləliklə, görülən tədbirlər Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır", "Azərbaycan dövləti hər zaman vətəndaşın yanındadır" fikirlərinin bariz təzahürüdür [3].

Azərbayca dövlətinin qlobal koronavirus pandemiyasının fəsadlarının qarşısının alınmasına yönəldilmiş kompleks tədbirlər sırasında əhalinin maarifləndirilməsi tədbirləri prioritet istiqamət təşkil etmişdir. Ölkədə fəaliyyət göstərən bütün radio, televiziya, qəzet, jurnal və kütləvi informasiya vasitələri ilə, həmçinin, ölkənin şəhər və rayonlarında maarifləndirici plakatlarla, sosial izolyasiyanı, pandemiyanın dəhşətini özündə ehtiva edən digər təşviqat vasitələri ilə bütün ölkə miqyasında maarifləndirmə işləri aparılmaqdadır.

Pandemiya şəraitində dövlətin vətəndaşların sosial problemlərinə kompleks qayğısı tədbirləri sırasında xüsusi sosial yardıma ehtiyacı olan insanların



müalicəsi, maddi-mənəvi stimullaşdırılması kimi böyük humanist addımlar mühüm yer tutmuşdur.

Belə bir həssas ictimai vəziyyətdə dünya kitabxanaları da minimal məhdudiyyətlərdən tam bağlanmaya qədər hansı xidmətlərin və onların necə təklif olunmasının çətin seçimi ilə qarşılaşırlar. Aydındır ki, ayrı-ayrı dünya ölkələri COVİD-19 pandemiyası ilə bağlı müxtəlif qərarlar qəbul edirlər. Belə situasiyada həm də, xidmətlərin məhdudlaşdırılması və ya kitabxanaların bağlanması ilə bağlı hər hansı bir qərar çətindir və cəlb olunan bütün riskləri qiymətləndirdikdən sonra bu qərarlar qəbul edilməlidir.

Pandemiya şəraitində demək olar ki, əksər dünya ölkələri, o cümlədən Azərbaycanda xüsusi karantin rejiminin tətbiqi ilə bağlı əksər xidmət sahələri, eləcə də, kitabxanaların fəaliyyəti müvəqqəti olaraq sosial izolyasiya məqsədilə dayandırılmışdır.

Hazırda dünya kitabxanaları öz ədəbiyyat fondlarına və xidmətlərinə uzaqdan əlçatarlığı təmin etmək üçün çalışırlar. Bütün növ kitabxanalar elektron resurslarını təbliğ edir: məsələn, pandemiya şəraitində Fransa Milli Kitabxanası virtual sərgilər təşkil edir, İspaniya Milli Kitabxanası təhsil məqsədləri üçün rəqəmsal informasiyanı təbliğ edir, Mərakeş Milli Kitabxanası elektron kitablara sərbəst girişi təmin edir, Danimarkadakı Arhus Xalq Kitabxanası elektronik linklərlə əlçatarlığın təmin edilməsinə çalışır və s. Kanadanın Kvebek əyalətindəki Granby Kitabxanası və Nyu-York İctimai Kitabxanası virtual kitab klubları təşkil edir. EIFL İctimai Kitabxanalarının İnnovasiya Proqramının tərəfdaşları olan Kibera, Nakuru və Keniyanın ictimai kitabxanaları, COVID-19 haqqında sosial mediada məlumatları müvafiq olaraq oxucu qruplarının dillərində yerləşdirir və maraqlı kitablar toplusunu yayımlayırlar [11].

COVİD-19 pandemiyası şəraitində məktəb kitabxanaları da uşaqların evdə təhsillərini davam etdirmələri üçün materiallarını valideynlər üçün uyğun bir formatda təqdim etmək üçün çalışırlar. Ümumiyyətlə, dünyada bir çox ictimai və məktəb kitabxanaları, bütün müəllif hüquqlarını qorumaqla onlayn xidmət təşkil edir. Məsələn, Portuqaliyada bunun üçün xüsusi bir "You-Tube" internet kanalı yaradılmış, Böyük Britaniyanın Kitabxana və İnformasiya Mütəxəssisləri üçün Nizamnamə İnstitutunda və ABŞ-ın Redford İctimai Kitabxanasında Milli Rəf layihəsi başlamışdır və bu prosesdə, etnik azlıqların dillərində həmin layihələrin oxunuşları təmin edilmişdir. Bundan əlavə, elektron monoqrafik resurslara çıxışın genişləndirilməsi üçün elektron kitabların sayını artırmaqla Danimarka və Hollandiyanın məktəb kitabxanalarında ödənişsiz onlayn layihə yaradılmış, ABŞ-da isə məktəb kitabxanarında onlayn elektron kitab oxunuşu layihəsini həyata keçirmək üçün geniş təşkilati və metodiki prosesə start verilmişdir.

Belə bir şəraitdə dünya kitabxanalarında rəqəmsal texnologiyalardan istifadə bacarıqlarına malik olmayan informasiya tələbatçıları üçün də müxtəlif təlim materialları hazırlanmağa başlanılmışdır. Bu baxımdan İspaniyanın Huesca Kitabxanasının və ABŞ-ın Hillsboro Kitabxanasının təcrübələri diqqə-

tələyiqdir. Eləcə də, ABŞ Konqres Kitabxanası uzaqdan insanları informasiya xidmətinə cəlb etmək üçün virtual transkripsiya təşkil etmiş, Norveç Milli Kitabxanası və Hollandiya Milli Kitabxanası ilə birlikdə "Ekranda Yazıçı" layihəsini təqdim etmişlər. İspaniyadakı Vega la Camoja Xalq Kitabxanası uşaqların mütaliəyə cəlb edilməsi və valideynlərin intellektual fəaliyyətlərində iştirak etmələrinə kömək etmək üçün "Jimhan" adlı tematik bölmə hazırlamış, ABŞ-dakı Arlington İctimai Kitabxanası yerli uşaqlar və sənətçilərlə birlikdə "Kuranzines mütaliə bölməsi" yaratmış, Aarhus İctimai Kitabxanası musiqi viktorinaları, ədəbi müsabiqə, virtual şeir döyüşləri, onlayn ev tapşırığı köməkliyi və ictimai müzakirələr üçün bölmələr yaratmışdır [5].

Pandemiya şəraitində dünyada fəaliyyət göstərən akademik-elmi kitabxanalarda məsafədən çıxışı təmin etmək üçün işlər görülməkdədir. Məsələn, Banqladeşdəki Şərq-Qərb Universitetində kitabların onlayn sifariş vermə prosesi həyata keçirilir. Malayziya Universitet Kitabxanası COVID-19 haqqında aktual məlumatların axtarışını sadələşdirmək üçün işləyir və bu fəaliyyəti barədə məlumatlandırıcı plakat hazırlayır.

Pandemiya şəraitində ABŞ, Kanada, Avstraliya və Böyük Britaniyada kitabxanalar mövcud müəllif hüquqları qanunlarına əsasən istifadəçilərə təklif edə biləcəkləri mövzularda məsləhətləşə bilmək üçün real rejimdə həyata keçirilən xidmətlər yaratmışlar.

Bir çox dünya ölkələrində kitabxanalar (xüsusilə milli kitabxanalar) pandemiya şəraitində sırf COVİD-19 virusu ilə bağlı öz vebsəhifələrində müxtəlif təlimatlar yerləşdirmişlər. Məsələn:

-Avstraliyada "Avstraliya Kitabxanasının COVID-19-a cavabı" adlı ayrıca böhran dövrü üçün Peşəkar İnkişaf bülleteninə pulsuz giriş açmış, pandemiya dövründə onlayn dərnəyin işinə kömək səhifəsi hazırlamışdır.

-Belçikada "Kitabxanalar və arxivlər ziyarətçilər üçün bağlandı" (Holland dilində) adlı vebsəhifə hazırlanmışdır;

-Braziliyada "COVID-19" (portuqal dilində) haqqında məlumat mənbəyi və kitabxana fəaliyyəti haqqında bir az" səhifəsi hazırlanmışdır;

-Böyük Britaniyada CILIP Kitabxana və İnformasiya Mütəxəssisləri üçün Nizamnamə İnstitutunun Coronavirus Məlumat Xidməti yaradılmışdır. CILIP hökumətdən müəllif hüququ qanunlarını yumşaltmağı xahiş edənlər arasında və uşaqlara oxumaq üçün tövsiyələri olan "You-Tube" internet kanalında gündəlik videolar seriyasından olan "Milli Rəf layihəsi"ni başlatmışdır;

-Qana Respublikasında Qana Kitabxana Təşkilatı elektron kitabxana kartları ilə qeydiyyatı təşviq edən, kitabxanalar və istifadəçilər üçün mənbələrin siyahısını veb saytında yayımlayan təlimat yerləşdirilmişdir;

-Almaniyada "Alman Kitabxana Birliyi COVID-19 ərəfəsində" (Alman dilində) adlı təlimathazırlanmışdır;

-İspaniyada "Akademik kitabxanalar şəbəkəsi mənbələrinin siyahısı" (ispan dilində) adlı səhifə hazırlanmışdır;



-İtaliyada "Məlumatı haradan tapmaq olar" (italyan dilində) adlı səhifə hazırlanmışdır;

-Koreyada "Coronavirus vəziyyəti haqqında məlumat" adlı elektron bülleten hazırlanmışdır;

-Yeni Zellandiyada "Coronavirus və Yeni Zelandiya Kitabxanaları" adlı onlayn xidmətdə əlçatarlığı təmin olunan elektron səhifə istifadəçilərin ixtiyarına verilmişdir.

-Portuqaliyada "Portuqaliya Kitabxana Assosiasiyası təlim vebinarlarına pulsuz giriş" (yalnız Portuqal dilində) yaradılmışdır.

-Amerika Birləşmiş Ştatlarında Pandemiyaya Hazırlıq İnformasiya Təlimi – Amerika Hüquq Kitabxanaları Assosiasiyasının hazırladığı məlumat mənbəyi səhifəsində və Amerika Məktəb Kitabxanaları Assosiasiyasının veb saytında yerləşdirilən pandemik idarəetmə tövsiyələrini hazırlanmışdır;

-Fransada Fransız Kitabxana Birliyi "Kitabxana Xidmətləri və İctimai Səhiyyə" (Fransız dilində) mövzusunda material hazırlayaraq vebsəhifədə əlçatarlığı təmin etməyə nail olmuşdur və s [8].

Eyni zamanda qlobal pademiya dövründə kitabxana sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlardan İFLA kononavirus pandemiyası ilə bağlı bir sıra geniş mövzuları gündəmə gətirmiş, böyük bir təlimat hazırlayaraq öz vebsəhifəsində yerləşdirmişdir. Həmin təlimat İFLA-nın (Kitabxana Assosiasiyalarının Beynəlxalq Federasiyası) pandemiya dövründə dünya kitabxanalarındakı vəziyyəti təhlil edərək geniş məzmunla ümumiləşdirən mühüm əhəmiyyətli sənəddir.

24957

Xüsusilə qeyd edilməsi gərəkdir ki, İFLA Dünya Əqli Mülkiyyət Təşkilatının Baş Direktoruna müəllif hüquqları qanunlarını pandemiya dövründə kitabxanaların lehinə optimallaşdırması məqsədilə yumşaldılmasını xahiş edən açıq bir məktub göndərmişdir ki, bu da qurumun beynəlxalq kitabxana təşkilatı kimi yüksək nüfuzunun əhəmiyyətli göstəricisi kimi qiymətləndirilə bilər. Bundan əlavə, İFLA koronavirus pandemiyası nəticəsində ortaya çıxa biləcək ümumi tendensiyalarla bağlı böyük bir müraciətini yayımlamışdır. Ümumulikdə İFLA-nın dünya kitabxanalarını və kitabxana cəmiyyətini pandemiya şəraitində birlikdə səfərbərliyə çağırış təşəbbüsləri konkret optimal strategiya ilə davam etməkdədir.

Qeyd etdiyimiz kimi, Respublikamızda hazırki koronavirus pandemiyası şəraitində kitabxanalar qarşısında ciddi vəzifələr durur. Bu vəzifələr öz mahiyyəti etibarilə ciddi elmi-nəzəri və təşkilati səciyyə daşıyır. İnanırıq ki Azərbaycan kitabxanaları bu əhəmiyyətli vəzifələrin öhdəsindən layiqincə gələrək aşağıda tövsiyə olunan qaydalara - yerində və onlayn xidmət prosesində gigiyena qaydalarına ciddi riayət edəcək, ümumilikdə çoxminli kitabxana ictimaiyyətinin və oxucuların həyatı və sağlamlıqları üçün olduqca ciddi səylər göstərməyə davam edəcəklər. Qeyd edək ki, belə halda xidmət prosesində həm xidmət edən kitabxana subyektləri, eləcə də, informasiya tələbatçıları əsasən aşağıdakı tövsiyə olunan gigiyena və digər sosial preventiv qaydalara riayət etməlidir:

-Sabunlu və isti su ilə əlləri yumaq;


Azərbaycan Milli Kitabxanası

-Əl təmizləyicilərindən və maskadan istifadə etmək;

-Kitabxananın kompüter - telekommunikasiya avadanlıqları ilə iş prosesində, eləcə də, kataloq-kartoteka sistemində axtarış apararkən müəyyən olunmuş məsafə saxlanmasına əməl etmək;

-Xüsusilə, pandemiyanın daha operativ təsirini nəzərə alaraq, yaşlı istifadəçilərə xidmət zamanı gigiyena tədbirlərini təmin etmək, xroniki və uzunmüddətli pataloji xəstəlikləri olan informasiya tələbatçılarına xidmət zamanı qoruyucu vasitələrdən, izolyativ profilaktikadan istifadəyə əməl etmək;

-Pandemiya riski şəraitində məsafədən xidməti təşkil etmək, onlayn və virtual kitabxana-informasiya fəaliyyətinin optimal təşkili üçün mövcud potensialı ortaya qomaq;

-Məsafədən kitabxana-biblioqrafiya və informasiya sifarişlərinin qəbul edilməsini və çatdırılmasını təmin etmək;

-Müəyyən olunmuş icazə saatları vaxtında oxucular tərəfindən geri qaytarılmış kitablar üzərində karantin siyasətini həyata keçirmək;

-Elektron sənədlər, elektron təhsil və ya distant təhsilə dəstək kimi onlayn xidmətlər üçün məqsədyönlü planları həyata keçirmək;

-Kitabxana resurslarından və ya xidmətlərindən istifadə imkanları barədə istifadəçilərlə davamlı qarşılıqlı əlaqəni təmin etmək;

-Müəllif hüquqları qanunlarına uyğun olaraq onlayn formatda kitab mütaliəsini təşkil etmək;

-Elektron kataloqların və elektron kitabxanaların davamlı redaktəsi, onlara əlçatarlığın təmin edilməsinin asanlaşdırılması, bir sıra dil və axtarış maneələrinin aradan qaldırılması üçün kompleks üsullardan istifadənin təmin edilməsinə nail olmaq və s.

Yuxarıda qeyd edilən bu tövsiyələr Azərbaycan kitabxana ictimaiyyətinin və eləcə də, informasiya tələbatçılarının həyat və sağlamlıqlarının qorunmasına ciddi töhfə olmaqla yanaşı, ümumilikdə, Azərbaycan cəmiyyətində sosial-preventiv tədbirlərin kompleksliliyini təmin edən amillər sırasında mühüm yer tutur.

Qlobal koronavirus pandemiyası şəraitində Azərbaycan Respublikasının ayrı-ayrı kitabxanaları müxtəlif təşəbbüslərlə çıxış edərək bu ağır prosesin aradan qaldırılması naminə bir sıra addımlar atmışlar. Məsələn, Azərbaycan Dövlət İqtisad Universiteti Kitabxana-İnformasiya Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayeva dünyanın ən zəngin sənəd fonduna malik elmi kitabxanalarından biri olan Rusiya Elmlər Akademiyasının Elmi Kitabxanası tərəfindən təşkil edilən "Pandemiya dövründə dünya kitabxanalarının fəaliyyəti" mövzusunda onlayn vebinarda iştirak etmişdir. Rusiya, ABŞ, Fransa, Türkiyə, Almaniya, Qazaxıstan və digər ölkələrdən 40-dan çox kitabxana mütəxəssisinin qatıldığı seminarda pandemiya dövründə kitabxanaların qarşılaşdıqları problemlər və onların həlli yollarından, oxucu tələbatındakı xarakterik dəyişikliklərdən, kitabxanalararası sənəd mübadiləsi və müəlliflik hüquqlarının yaratdığı bir sıra çətinliklər barədə yüksək elmi və metodiki əhəmiyyətə



malik peşəkar fikir mübadiləsi aparılıb. A.Abdullayeva UNEC-in Kitabxana İnformasiya Mərkəzinin fəaliyyətindən ətraflı bəhs edib. Karantin günlərində UNEC-də tələbələrin və professor-müəllim heyətinin informasiya tələbatının ödənilməsi məqsədilə təqdim edilən onlayn xidmət, elektron resurslar, beynəlxalq məlumat bazaları haqqında məlumatlar beynəlxalq seminarın iştirakçıları tərəfindən maraqla qarşılanıb [13].

Burada xüsusilə vurğulamağı vacib hesab edirik ki, məhz yuxarıda bəhs edilən beynəlxalq vebinarın nəticələri Azərbaycan kitabxana ictimaiyyəti üçün ciddi əhəmiyyət kəsb etmiş, belə tədbirlərin ölkə kitabxanaları arasında da təşkilinin faydalı olacağı qənaətinə gəlinmişdir. Belə ki, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Kitabxana İnformasiya Mərkəzi tərəfindən təşkil edilən vebinarda Azərbaycanda fəaliyyət göstərən 50-dən çox ali məktəb kitabxanasının rəhbərləri və kitabxana mütəxəssisləri qatılmışdır. Seminarda pandemiya dövründə ölkə kitabxanalarının fəaliyyəti, pandemiya şəraitində qarşıya çıxan problemlər və onların həlli yolları ətrafında geniş müzakirələr aparılmışdır. Vebinarda Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Nigar İsmayılova "Pandemiya dövründə Azərbaycanda universitet kitabxanalarının fəaliyyəti" mövzusunda geniş məruzə etmişdir. N.İsmayılova sosial izolyasiya dövründə BDU-da 2020-ci il aprel ayının 1-dən etibarən ümumilikdə 16 minə yaxın tələbə və 1500-ə yaxın müəllimin "Microsoft Teams" platforması üzərindən onlayn dərsləri davam etdirdiyini vurğulayaraq, bu dövr ərzində professor-müəllim heyəti və tələbələrə Elmi Kitabxananın elektron kitabxana bölməsi vasitəsilə 4000-ə yaxın tammətnli dərslik və dərs vəsaiti, 1300-dən çox bədii ədəbiyyat nümunələri təqdim edildiyini qeyd etmişdir [13].

Ümumilikdə bu seminarda müzakirə olunan pandemiya dövründə ali təhsil müəssisələrində həyata keçirilən distant təhsilin informasiya resurs təminatı məsələləri, oxuculara təqdim edilmiş onlayn və virtual xidmətlər, elektron resurslar, beynəlxalq məlumat bazaları haqqında məlumatlar iştirakçılar tərəfindən ciddi aktuallığı ilə qiymətləndirilib.

Qeyd etmək lazımdır ki, 2020-ci ilin 7 mayında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Ramiz Mehdiyevin müvafiq sərəncamına əsasən Akademiyanın Mərkəzi Elmi Kitabxanasında pandemiya və sosial izolyasiya şəraitində alim və mütəxəssislərin informasiya tələbatının ödənilməsi və bu dövrdə fəaliyyətin təşkili məsələlərinə həsr olunmuş telekonfrans keçirilib. Kitabxana administrasiyasının iştirakı ilə keçirilən telekonfransda MEK-in koronavirus pandemiyası dövründə fəaliyyəti təhlil edilərək görüləcək işlərin əsas istiqamətləri və bu fəaliyyətdə iştirak edəcək kadr kontingentinin tərkibi və s. məsələlər müzakirə edilib [12].

Burada vurğulamaq yerinə düşərdi ki, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov 2020-ci il aprelin 4-də pandemiya dövründə Azərbaycan Milli Kitabxanasının fəaliyyəti barədə REAL TV-yə geniş müsahibə vermişdir. Pandemiya şəraitində ölkənin əsas ki-

tabxanaların xüsusi karantin rejimi ilə əlaqədar öz fəaliyyət istiqamətlərini müvafiq şəraitə uyğun qurduğunu qeyd edən K.Tahirov M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən onlayn formada oxuculara kitabxana-informasiya xidmətinin davam etdirilərək, kitabxananın onlayn xidmətlərinin (biblioqrafik sorğu, sənədlərin sifarişi və elektron çatdırılması, virtual sərgi və metodiki xidmətlər) oxucular üçün aktiv olmasını vurğulamışdır. Müsahibədə qeyd olunur ki, 2020-ci il martın 11-dən 31-dək Milli Kitabxananın onlayn xidmətləri vasitəsilə 659 istifadəçiyə sənədlərin elektron çatdırılması xidməti göstərilib. Bu müddət ərzində onlara 1800 kitab və 4200 məqalənin elektron çatdırılması təmin olunub.

Kitabxananın elektron veb-saytının "Elektron kataloq və elektron kitabxana" bölməsinə pandemiyanın ilk bir ayı ərzində 182 583 nəfər kitabları onlayn oxumaq üçün müraciət edib və müvafiq dövr ərzində sayta daxil olanların sayı isə 225 825 nəfər olub. "Könüllülər ili" ilə əlaqədar olaraq Milli Kitabxananın nəzdində fəaliyyət göstərən açıq kitabxanada yaradılmış könüllülər qrupu martın 13-dən aprelin 2-dək kitabxanada olan maraqlı kitabların videogörüntülərini və xülasələrini kitabxananın "facebook" sosial səhifəsi vasitəsilə onlayn şəkildə oxuculara təqdim etmişdir. Ümumiyyətlə, professor K.Tahirovun bu müsahibəsində Milli Kitabxananın fəaliyyəti haqqında və bütövlükdə Azərbaycan kitabxanalarının pandemiya şəraitində üzərinə düşən vəzifələr ətrafında səsləndirdiyi fikirlər yüksək elmi-metodiki və praktiki əhəmiyyət kəsb edir [11]. *(Qeyd: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirovun REAL TV-yə verdiyi geniş müsahibəsi ilə https://www.realtv.az/news/az/43381/onlayn-kitabxana-canli veb ünvanından tanış olmaq mümkündür)* [12].

Pandemiya şəraitində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının "Evdə qal, tək darıxma" layihəsi də təqdirəlayiqdir. Koronavirus pandemiyasının ölkəmizdə daha geniş yayılma təhlükəsinin qarşısının alınması məqsədilə həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində evdə qalan uşaqlarımızın vaxtlarının səmərəli keçirilməsi üçün bu layihədən Respublikanın digər kitabxanaları da istifadə edə bilər. Layihə çərçivəsində uşaq yazarları öz oxucularına nağıl, hekayə, şeir və s. təqdim edirlər. Bu layihədən əsasən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin uşaq şöbələri yararlana bilər. Sosial şəbəkələrdə artıq bir sıra şəhər və rayon MKS-lərinin və onların filiallarının xüsusi elektron kitabxana xidmətləri təklif olunur və bu xidmətlər sosial izolyasiya dövründə kitabxanaların fəaliyyət istiqamətlərini təşkil edir.

Azərbaycan Respublikasında pandemiyanın zərərlərini minimuma endirmək üçün əhəmiyyətli və sistemli tədbirlər görülməkdədir. Pandemiyanın vura biləcəyi zərbələrdən az itki ilə çıxmaq üçün əsas şərt kimi müvafiq olaraq mart, aprel və may ayları ərzində ölkədə xüsusi karantin rejimi tətbiq edilib. Məqsəd əhalinin evdə qalmasını təmin etmək, sosial izolyasiya tədbirlərini genişləndirmək, bununla da, virusun yayılmasının qarşısını almaqdır. Əgər koronavirusla bağlı dünya üzrə rəsmi statistikanı təhlil etsək, Azərbaycanın bu sahədə vəziyyətinin digər ölkələrlə müqayisədə xeyli dərəcədə qənaətbəxş olduğunu söyləyə bilərik. Təbii ki, burada hökumətin gördüyü profilaktik tədbirlərin əhəmiyyətli rolu var.



Ölkə prezidenti İlham Əliyev tərəfindən atılan məqsədyönlü addımlar nəticəsində Azərbaycan xalqı bu ümumbəşəri bəladan qorunmağı bacarmış, əhalinin soial təminatı dövlətin himayəsində maksimum təmin edilmişdir. Əvvəldə də qeyd etdiyimiz kimi, Ölkə başçısının şəxsi nəzarəti altında Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB) yaradılmış və bu qurumlar ölkədə sosial izolyasiya, sosial tibbi-gigiyenik və s. təminat tədbirlərin icraedici mərkəzinə çevrilmişdir.

Ölkə prezidenti cənab İlham Əliyev tərəfindən Sumqayıt Kimya Sənaye Parkının istifadəyə açılması və tibbi maska istehsalı müəssisəsinin işə salınması da ölkədə əhalinin sosial dövlət qayğısının tədbirlər silsiləsindən növbəti mühüm hadisə, koronavirusla mübarizəyə əsaslı töhfədir. Azərbaycanda qısa müddətdə tibbi maska istehsalına başlanması xüsusi əhəmiyyət kəsb edir. Pandemiya ərəfəsində demək olar ki, dünyanın heç bir ölkəsində qısa zaman kəsiyində belə bir addım atılmayıb. Onu da vurğulayaq ki, tibbi maska istehsalı həm koronavirusla mübarizəyə mühüm töhfədir, həm də Azərbaycanın bu sahədə asılılığını aradan qaldırır. Prezident İlham Əliyevin də maska istehsal edən müəssisənin açılışında xalqa müraciətində qeyd etdiyi kimi, əsas məqsəd insanların sağlamlığının təmin edilməsidir. Prezident İlham Əliyev bu müəssisənin açılışında "Azərbaycanda insanların infeksiyaya yoluxmaması və sağlamlığının təmin edilməsi üçün bütün tədbirlər görülür və qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ölkəmizdə hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində hər gün yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Azərbaycan isə dünyada aparıcı ölkələrdəndir ki, pandemiya ilə mübarizədə bu miqyasda işlər görüb. Koronavirusla mübarizədə Azərbaycanın əldə etdiyi başlıca uğur məsuliyyət və nizam-intizamın yüksək səviyyədə olması, milli birlik nümayiş etdirilməsidir" fikri də ölkə rəhbərliyinin xalqın müxtəlif qlobal ümumbəşəri xəstəliklərdən qorunması istiqamətində məqsədyönlü siyasətinin təşkil edilməsinə bariz nümunədir [3].

Bütün bu amillər ölkəmizin koronavirusla mübarizədə bir nümunə olduğunu nümayiş etdirir. Artıq bəzi ölkələr Azərbaycan nümunəsini öyrənməyə, tətbiq etməyə başlayıb.Azərbaycanda tibbi maskaların və dezinfeksiyaedici məhlulların hazırlanması ilə bağlı qurulmuş infrastruktur imkan verir ki, qısa müddət ərzində lazım olan istehsalat sahələri təşkil olunsun. Burada əsas məqsəd insanların sağlamlığı təmin etməkdir.

Pandemiya dövründə xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə edilib. Artıq 15 minə yaxın Azərbaycan vətəndaşının Azərbaycan hökumətinin qətiyyətli siyasi və diplomatik addımları nəti-

cəsində təşkil etdiyi xüsusi çarter reysləri vasitəsilə xarici ölkələrdən təxliyə edilərək Vətənlərinə qaytarılması dövlətin öz vətəndaşlarına dünyanın harasında olmasından asılı olmayaraq sahib çıxmasına həssaslıqla yanaşmasına dəlalət edən əhəmiyyəli faktlardandır.

Pandemiya şəraitində ölkə ərazisində karantin zonalarına yerləşdirilən insanlar üçün də hər cür şərait yaradılmış və Azərbaycan dövləti tərəfindən koronavirusdan zərər çəkən sahələrdə çalışan insanların problemləri nəzərə alınmışdır ki, bu, Azərbaycan dövlətinin sosial ədalət, humanizm və həmrəylik prinsipləri əsasında ekstremal situasiyalarda belə, vətəndaşlara qayğısının, qətiyyətlə deyə bilərik ki, dünya ölkələri üçün nümunə ola biləcək modeli kimi qiymətləndirilməyə layiqdir.

Prezident İlham Əliyev öz çıxışlarında daim belə həssas bir məqamda dövlətin öz vətəndaşının arxasında olduğunu nümayiş etdirməsini vurğulayır. Ölkə rəhbəri çıxışlarında qeyd edir ki, Azərbaycanda iqtisadi sabitliyin təmin edilməsinə, məşğulluqla bağlı problemlərin həllinə, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına ən azı 2.5 milyard manat ayrılacaqdır. Azərbaycanda 600 min işçi, o cümlədən fərdi sahibkar dövlət hesabına maliyyələşdiriləcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır: "Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziyyətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanıb. Sahibkarlara mənim çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır. O cümlədən tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi - bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu, çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!" [3].

Qeyd edək ki, Azərbaycan Respublikasında 65 yaşdan yuxarı tənha şəxslərin, eləcə də aztəminatlı ailələrin, muzdlu işçilərin, kiçik və orta sahibkarların dövlət tərəfindən himayə edilməsi, onlara maddi dəstəyin göstərilməsi ancaq Azərbaycanda müşahidə edilməsi bir daha qeyd edirik ki,ölkənin sosial ədalət prinsiplərinə sadiqliyinin əyani göstəricisi, dövlət-vətəndaş münasibətlərinin fundamental sosial və obyektiv siyasi prinsiplər əsasında qurulmasının mühüm göstəricisi kimi qiymətləndirilir.

Dövlət başçısının koronavirus təhlükəsi ilə əlaqədar atdığı daha bir örnək addım isə yaşı 65-dən yuxarı olan məhkumların azadlığa buraxılması barədə əfv sərəncamı imzalaması oldu. Prezident İlham Əliyevin dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq imzaladığı sərəncamla 176 məhkum pandemiya dövründə azadlığa buraxıldı. Bu, ölkə başçısının vətəndaşlara həssas münasibətini bir daha təcəssüm etdirir, onun humanizmindən və yüksək demokratizmindən xəbər verir. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin koronavirusla mübarizə çərçivəsində atdığı belə həm qətiyyətli, həm də humanist addımları bu savaşa öz töhfəsini verir və ölkənin bu bəladan ən az itki ilə çıxmasını təminat yaradır [1].

Diqqətdən qaçmamalıdır ki, Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı savaşı demək olar ki, öz vəsaiti hesabına aparır. Azərbaycan bu aspektdə yeni bir nümunə yaradır və artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər, aparılan mübarizə Azərbaycanın bu sınaqdan da daha az itki ilə çıxacağına əminlik yaradır. Ölkə başçısı hər bir vətəndaşı koronavirusla mübarizədə birləşməyə səsləyir – "Biz birlikdə güclüyük". Ölkə liderinin bu çağırışına hər kəs qoşulur. Pandemiyaya qarşı mübarizədə Azərbaycanın əldə etdiyi uğurun başlıca səbəbi də milli birliyin nəticəsidir. Azərbaycan tezliklə bu mübarizədən də qalib çıxacaq. Məsuliyyətli olmalı və qaydalara əməl etməli, məhz belə çətin günlərdə hər bir Azərbaycan vətəndaşı yumruq kimi birləşməli, bir-birilərinə kömək və dəstək olmaqla yanaşı, karantin qaydalarına əməl edərək, ölkə rəhbərliyinin koronavirusla və onun yaratdığı xoşagəlməz sosial-iqtisadi nəticələri ilə mübarizə çərçivəsində həyata keçirdiyi tədbirlərə dəstək olmalıyıq [2].

**Nəticə:** Respublikamızda koronavirus pandemiyası dövründə kitabxanalarda iş prosesinin dayandırılmasına baxmayaraq, müasir informasiya-kommunikasiya texnologiyaları müxtəlif formatlarda iş fəaliyyətini davam etdirməyə imkan yaradır. Belə bir şəraitdə kitabxanaların fəaliyyət istiqaməti əsasən onlayn xidmətə çevrilmişdir. Belə şəraitdə əvvəldə də qeyd etdiyimiz kimi, kitabxanaların üzərinə düşən əsas vəzifə elektron formada oxuculara xidmət etmək, cəmiyyətin informasiyaya olan tələbatını təmin etmək, insanlarda mütaliə mədəniyyətinin formalaşdırılmasını istiqamətləndirmək, kitaba olan marağı artırmaqdır. Qeyd etmək istəyirik ki, sosial təcrid dövründə evdə qalan insanların ən gözəl məşğuliyyəti kitab oxumaq, mütaliə etmək olardı. Çünki kitab oxumaq, mütaliə tənhalıq hissini ortadan qaldırır, fərdi yaradıcılığı inkişaf etdirir. Belə çətin situasiyalarda da məhz mütaliə bizə mənəvi-psixoloji vəziyyətdən azad olmağa əhəmiyyətli dərəcədə töhfə verə bilər.

Respublikada koronavirus pandemiyasının aradan qaldırılması tədbirləri virusa yoluxma sayı və yoluxanların sağalma sayı nisbətilə qiymətləndirilərək tədricən yumşaldılmaqdadır. Məhz bu tədbirlərin fövqündə bir daha biz insanlara daha məsuliyyətli, daha diqqətli olmalı, qlobal pandemiya bəlasının tüğ-

yan etdiyi müəyyən dövr üçün zəruri situasiyalarda evdə qalmalı, dövlətin vətəndaşları, Azərbaycan cəmiyyətini dəhşətli pandemiyanın fəsadlarından qorumaq üçün həyata keçirdiyi sosial izolyasiya tədbirlərinə riayət etməli, bu prosesə dəstək olmalıyıq

**Ədəbiyyat**


1. https: //www.anl.az/
2. https://cabmin.gov.az//az/
3. https://president.az/.
4. http://bsu.edu.az/ru/
5. https://www.ada.edu.az/
6. https://asan.gov.az/az
7. https://www.loc.gov/
8. https://www.ifla.org/
9. http://khazar.org/az/
10. https://www.dia.edu.az/
11. http://www.mek.az/
12. https://www.realtv.az/news/az/43381/onlayn-kitabxana-canli
13. http://unec.edu.az/


**Rəyçi: p.ü.f.dok., dos. N.İ.İsmayılov**